**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən onlayn media subyektlərinin (veb-saytların) inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə təşkil edilən müsabiqənin**

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 31 iyul tarixli 2957 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası”nın (bundan sonra – Konsepsiya) müsabiqəli maliyyə yardımının göstərilməsinə dair müddəalarının yerinə yetirilməsi və “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi”nin 3.1.3-cü, 3.1.6-cı və 3.1.12-ci yarımbəndlərinin icrası məqsədilə keçirilən müsabiqə (bundan sonra – Müsabiqə) ilə əlaqədar hüquqi və təşkilati məsələləri tənzimləyir.

1.2. Müsabiqənin məqsədi onlayn media subyektlərinin (veb-saytların) inkişafına, iqtisadi müstəqilliyinin gücləndirilməsinə, fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilən, həmçinin Konsepsiyaya uyğun olaraq, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinin təşkil edilməsi və bununla əlaqədar onlayn media subyektlərinə (veb-saytlara) maliyyə yardımının göstərilməsidir.

1.3. Müsabiqənin başlama və bitmə tarixi Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (bundan sonra – Agentlik) tərəfindən müəyyən edilir.

1.4. Müsabiqə barədə elan Agentliyin rəsmi internet saytında, habelə sosial şəbəkə hesablarında yerləşdirilir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydaların məqsədi üçün aşağıdakı anlayışlardan istifadə edilir:

2.1.1. onlayn media – audiovizual media və çap mediası istisna olmaqla mətn, audio, vizual və ya digər elektron (rəqəmsal) formada olan kütləvi informasiyanı veb-saytda yayımlayan media;

2.1.2. “google analytics” hesabı – veb-saytda real vaxt statistikası ilə istifadəçinin qarşılıqlı təhlilini təmin edən veb-analitika tətbiqi;

2.1.3. ümumi səhifə baxışları (pageviews) – müəyyən edilmiş müddət ərzində veb-saytın səhifələrinə baxışın ümumi sayı;

2.1.4. ümumi daxilolma (traffic) – müəyyən edilmiş müddət ərzində veb-sayta daxilolmaların ümumi sayı;

2.1.5. ziyarətçi əldə etmə göstəricisi (aquisition) – ziyarətçilərin veb-sayta haradan gəldiyini (axtarış motorları, sosial şəbəkələr və ya veb-sayt yönləndirmələri vasitəsi ilə) müəyyən etməyə imkan verən göstərici;

2.1.6. təbii (organic) ziyarətçi sayı – heç bir kənar təsirlər və reklam vasitələri istifadə edilmədən veb-sayta birbaşa daxilolmaların sayı;

2.1.7. ödənişli (paid) ziyarətçi sayı – reklamlar vasitəsi ilə veb-sayta daxilolmaların sayı;

2.1.8. metrix – istifadəçi davranışının statistik datasını toplayan, xəbər trendlərini müəyyənləşdirən və reytinq sıralamasını formalaşdıran veb-təhlil aləti;

2.1.9. mənbə kodu – proqramçı tərəfindən proqramlaşdırma dilindən istifadə edilməklə yazılmış təlimatlar və ifadələr toplusu.

## 3. Müsabiqənin ümumi şərtləri

3.1. Müsabiqəyə ictimai-siyasi (məzmununun əksər hissəsi ümumilikdə xəbərlərdən, ictimai, siyasi, sosial, iqtisadi, humanitar və s. mövzuların işıqlandırılmasından, şərh və təhlilindən ibarət olan) və idman məzmunlu kütləvi informasiya dərc edən onlayn media subyektləri (veb-saytlar) müraciət edə bilərlər.

3.2. Müsabiqədə iştirak üçün müraciət etmiş onlayn media subyekti (veb-sayt) qiymətləndirmənin aparılması məqsədilə öz veb-saytının "google analytics" hesabına daxil olmaq üçün Agentliyə yazılı giriş icazəsi verməlidir.

3.3. İctimai-siyasi və idman məzmunlu kütləvi informasiya dərc edən onlayn media subyektləri (veb-saytlar) arasında müsabiqə ayrı-ayrılıqda bu Qaydalara uyğun olaraq keçirilir.

## 4. Müsabiqədə iştirak

4.1. Bu Qaydaların 3.1-ci bəndində nəzərdə tutulmuş onlayn media subyektləri (veb-saytlar) aşağıdakı tələblərə cavab verdikdə müsabiqədə iştirak edə bilərlər:

4.1.1. onlayn media subyektinin (veb-saytın) işçilərinin əmək müqaviləsi ilə müəyyən edilmiş işləri (xidmətləri) yerinə yetirdikləri yer (ofis sahəsi) olmalıdır;

4.1.2. öz əmək funksiyasını səmərəli və faydalı yerinə yetirməsi üçün onlayn media subyektinin (veb-saytın) işçilərinin əmək şəraiti minimum tələblərə (kompüter, ofis ləvazimatları və s.) cavab verməlidir;

4.1.3. yenidən təşkil (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə), müflis olma, ləğv edilmə prosesində olmamalıdır;

4.1.4. Media Reyestrinə daxil edilmiş olmalıdır;

4.1.5. bir nəfər məsul redaktor, bir nəfər jurnalist, bir nəfər texniki işçi yaxud bir nəfər məsul redaktor, iki nəfər jurnalist olmaqla ən azı üç nəfərdən ibarət heyəti olmalıdır;

4.1.6. onlayn media subyekti (veb-sayt) "metrix" veb-təhlil alətinin skriptini veb-saytın mənbə kodunda yerləşdirmiş olmalıdır.

4.2. Müsabiqəyə müraciət edən onlayn media subyektlərindən (veb-saytlardan) aşağıdakı sənədlər tələb olunur:

4.2.1. onlayn media subyektinin (veb-saytın) məsul redaktorunun və ya təsisçisinin ərizəsi *(bütün bəndləri doldurulmuş və imzalanmış olmalıdır) (əlavə olunur)*;

4.2.2. Media Reyestri şəhadətnaməsi;

4.2.3. hüquqi şəxs olduqda onlayn media subyektinin (veb-saytın) nizamnaməsi;

4.2.4. onlayn media subyektinin (veb-saytın) müvəkkil bankın möhürü və səlahiyyətli şəxsinin imzası ilə təsdiq edilmiş aktiv bank hesabı üzrə rekvizitlərini əks etdirən sənəd;

4.2.5. onlayn media subyektinin (veb-saytın) bu Qaydaların 4.1.5-ci yarımbəndinin tələblərinə cavab verdiyini təsdiq edən çap olunma tarixi Müsabiqəyə müraciətdən ən geci 7 (yeddi) gün əvvələ qədərki dövrə aid olan əmək müqaviləsi bildirişləri;

4.2.6. onlayn media subyektinin (veb-saytın) fəaliyyət göstərdiyi ofis sahəsinin onun istifadəsində olmasını təsdiq edən sənəd;

4.2.7. veb-saytın "google analytics" hesabına yazılı giriş icazəsi *(əlavə olunur)*.

4.3. Bu Qaydaların 4.1-ci və 4.2-ci bəndlərinin tələblərinə cavab verməyən müraciətlər Müsabiqə zamanı nəzərə alınmır.

4.4. Müsabiqəyə müraciət bu Qaydaların 4.2-ci bəndində nəzərdə tutulmuş sənədlərin ".pdf" yaxud ".jpeg" versiyasının (skan edilmiş surəti və ya fotoşəkli) "Medianın inkişafına dəstək layihələri üzrə elektron informasiya bankı"na (bundan sonra – Elektron informasiya bankı) daxil edilməsi yolu ilə edilir.

4.5. Müsabiqəyə müraciət etmək üçün onlayn media subyekti Elektron informasiya bankında qeydiyyatdan keçməli və şəxsi kabinetini yaratmalıdır.

4.6. Müsabiqədə iştirak üçün təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə həmin çatışmazlıqların bu Qaydaların 1.3-cü bəndində nəzərdə tutulmuş müddət ərzində aradan qaldırılmasına yol verilir.

4.7. Müsabiqədə iştirak üçün müraciət etmiş onlayn media subyekləri (veb-saytlar) bu Qaydaları qəbul etmiş hesab edilir və təqdim edilmiş sənədlərin və məlumatların tamlığına və düzgünlüyünə görə cavabdehlik daşıyır.

4.8. Agentlik Müsabiqədə iştirak üçün təqdim edilmiş sənədlərin əslini tələb etmək hüququna malikdir.

4.9. Bu Qaydaların 4.2.1-ci və 4.2.7-ci yarımbəndlərində nəzərdə tutulmuş əlavələr bu Qaydaların ayrılmaz tərkib hissəsidir.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə əsas ümumi domen üzərindən və onlayn media subyektinin (veb-saytın) Müsabiqəyə müraciət etdiyi günədək son 3 (üç) aylıq dövr ərzində hər ay üzrə Qanunun 13.1-ci və 13.2-ci maddələrinin tələblərinə əməl etməklə və həmin Qanunun 13.3-cü maddəsində göstərilən informasiya istisna olmaqla ən yuxarı göstəricili 2 (iki) məqaləsi, həmçinin veb-saytın dizaynı üzrə aparılır.

5.2. Əsas ümumi domen üzərindən qiymətləndirmə onlayn media subyektlərinin (veb-saytların) “google analytics” hesabları əsasında ümumi səhifə baxışı sıralamasına (pageviews) uyğun olaraq azalan istiqamətdə və əlavə olaraq aşağıdakı göstəricilər nəzərə alınmaqla aparılır:

5.2.1. istifadəçilərin sayı;

5.2.2. sessiyaların sayı;

5.2.3. orta sessiya müddəti;

5.2.4. bir sessiya zamanı baxılan səhifələrin sayı.

5.3. Qiymətləndirmə zamanı onlayn media subyektinin (veb-saytın) ziyarətçi əldə etmə göstəricisi və auditoriyanın coğrafi mənsubluğu analiz edilir, nəticələrin həqiqətə uyğunluğuna əsaslı şübhələr yarandıqda onlar ümumi daxilolma göstəricisindən çıxılır, onlayn media subyektinin (veb-saytın) təbii ziyarətçi sayı ödənişli ziyarətçi sayından üstün tutulur.

5.4. Onlayn media subyektinin (veb-saytın) sosial şəbəkə hesablarında aktivliyi və fəaliyyət göstərdiyi hər bir əlavə dil üstünlük meyarı kimi nəzərə alınır.

5.5. Onlayn media subyektinin (veb-saytın) bu Qaydaların 5.1-ci bəndində göstərilən məqalələri və veb-saytın dizaynı üç fərqli ekspert tərəfindən fərdi qaydada aşağıdakı meyarların hər biri üzrə ən aşağı “0”, ən yüksək “20” bal olmaqla qiymətləndirilir və hər biri barədə yazılı rəylər verilir:

5.5.1. məqalələrin orijinallığı, informativliyi və analitik xarakteri;

5.5.2. mövzuların jurnalistikanın ümumi prinsiplərinə uyğunluğu;

5.5.3. mətnlərin üslubi keyfiyyətləri, dilin norma və qaydalarına əməl olunması;

5.5.4. saxta xəbərlərin (fake news), aldadıcı başlıqlı xəbərlərin (clickbait), plagiat materialların (kütləvi informasiya vasitəsi özünün əvvəl dərc etdiyi və ya digər şəxslərə məxsus materialın yalnız üçdə birindən çox olmayan hissəsini istinad etməklə istifadə edə bilər) həcmi;

5.5.5. veb-saytın dizaynının müasir standartlara uyğunluğu.

5.6. Bu Qaydaların 5.5-ci bəndində nəzərdə tutulan qiymətləndirmə üzrə minimum keçid balı 50 (əlli) bal təşkil edir.

5.7. Bu Qaydaların 5.5-ci bəndində göstərilən qiymətləndirmə Agentlik tərəfindən cəlb edilmiş müstəqil ekspertlər – müvafiq sahədə zəngin bilik və təcrübəyə, ictimai nüfuza malik və peşəkar, Müsabiqənin nəticəsində marağı olmayan şəxslər tərəfindən həyata keçirilir.

5.8. Bu Qaydaların 5.2-ci, 5.3-cü, 5.4-cü və 5.5-ci bəndlərində nəzərdə tutulan qiymətləndirmənin nəticələri bu Qaydaların 5.6-cı bəndi nəzərə alınmaqla Agentlik tərəfindən ümumiləşdirilir və qaliblər müəyyən olunur.

5.9. Onlayn media subyektləri (veb-saytlar) eyni bal topladıqda onlara verilmiş müvafiq yazılı rəylər nəzərə alınır.

5.10. Müsabiqənin nəticəsi barədə məlumat Agentliyin rəsmi internet saytında, habelə sosial şəbəkə hesablarında yerləşdirilir.

## 6. Maliyyə yardımının göstərilməsi

6.1. Qalib elan edilmiş onlayn media subyektləri (veb-saytlar) ilə Agentlik arasında maliyyə yardımının göstərilməsinə dair müqavilə imzalanır və maliyyə yardımının həyata keçirilməsinə başlanır.

6.2. Qalib elan edilmiş onlayn media subyektlərinin (veb-saytların) hər birinə aylıq 3000 (üç min) manat məbləğində maliyyə yardımı göstərilir.

6.3. Qalib elan edilmiş ictimai-siyasi məzmunlu kütləvi informasiya dərc edən onlayn media subyektləri (veb-saytlar) Agentlik tərəfindən maliyyə yardımı göstərilən dövr ərzində həftədə bir dəfə aşağıdakı sahələrdən hər hansı biri üzrə materialın hazırlanaraq dərc olunmasını təmin edirlər:

6.3.1. vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu;

6.3.2. fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi;

6.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması;

6.3.4. ictimai və dövlət maraqlarının müdafiəsi;

6.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;

6.3.6. Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;

6.3.7. işğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”;

6.3.8. Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği;

6.3.9. azərbaycançılıq ideyasının təbliği – “Heydər Əliyev İli”;

6.3.10. gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi;

6.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi;

6.3.12. azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi;

6.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi;

6.3.14. diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi;

6.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;

6.3.16. elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması;

6.3.17. ekologiya və ətraf mühitin mühafizəsi;

6.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması;

6.3.19. uşaq və gənclərin fiziki və mənəvi inkişafı.

6.4. Bu Qaydaların 6.3-cü bəndində nəzərdə tutulan materiallar hər növbəti ay əvvəlkindən fərqli sahədə (sahələrdə) yazılmalıdır.

6.5. Qalib elan edilmiş idman məzmunlu informasiya dərc edən onlayn media subyektləri (veb-saytlar) isə Agentlik tərəfindən maliyyələşdirilən dövr ərzində həftədə bir dəfə bu Qaydaların 6.3.19-cu yarımbəndində göstərilən sahə üzrə hazırlanan materialın dərc olunmasını təmin edirlər.

6.6. Bu Qaydaların 6.3-cü və 6.5-ci bəndlərində göstərilən materialın yayımlandığı veb-səhifənin sonunda onun Agentliyin maliyyə yardımı ilə dərc olunduğu və müəllifi qeyd olunmalı, Agentliyin loqosu yerləşdirilməlidir.

6.7. Maliyyə yardımı bu Qaydaların 8-ci hissəsi nəzərə alınmaqla, 6 (altı) ay müddətində davam etdirilir.

## 7. Maliyyə yardımından istifadə

7.1. Maliyyə yardımı göstərilən dövr ərzində bu Qaydaların 4.1.5-ci yarımbəndində göstərilən işçilərin hər birinin əməkhaqqının minimum məbləği 600 (altı yüz) manat təşkil etməli, maliyyə yardımının digər hissəsi isə veb-saytın infrastrukturunun gücləndirilməsi, dil imkanlarının genişləndirilməsi, təhlükəsizliyinin təmin edilməsi və rəqəmsal keyfiyyətinin artırılmasına (istifadəçinin səhifədə qalma müddətinin artırılması, təkrar qayıdışların təmin edilməsi və (və ya) subyektin axtarış mühərriklərində asan tapılması istiqamətində optimallaşdırıcı mexanizmin tədbiq olunmasına) yönəldilməlidir.

7.2. Maliyyə yardımının göstərilməsinə dair müqavilə imzalamış onlayn media subyekti (veb-sayt) həmin müqavilənin qüvvədə olduğu müddət ərzində hər ayın sonu müvafiq maliyyə vəsaitinin hansı istiqamətlərə xərcləndiyini təsdiq edən sənədləri Agentliyə təqdim edir.

## 8. Maliyyə yardımının dayandırılması

8.1. Agentlik maliyyə yardımı göstərilən onlayn media subyektlərinin (veb-saytların) bu Qaydaların tələblərinə əməl etməsi vəziyyətinin monitorinqini aparır.

8.2. Bu Qaydaların 8.1-ci bəndində nəzərdə tutulmuş monitorinq nəticəsində onlayn media subyekti (veb-sayt) tərəfindən müqavilə şərtlərinin pozulduğu aşkar edildikdə Agentlik həmin ay üzrə maliyyə yardımının ödənilməsini dayandırır və aşkar edilmiş pozuntuların aradan qaldırılması ilə bağlı ona xəbərdarlıq edir.

8.3. Onlayn media subyekti (veb-sayt) tərəfindən bu Qaydaların 8.2-ci bəndində nəzərdə tutulmuş xəbərdarlığa növbəti ay əməl edilmədikdə Agentlik maliyyə yardımı müqaviləsinə birtərəfli qaydada xitam verməklə maliyyə yardımını dayandırır.

8.4. Qanunun 65.2-ci maddəsinə uyğun olaraq onlayn media subyektinə xəbərdarlıq edildikdə və ya onlayn media subyekti media sahəsində fəaliyyət azadlığından sui-istifadə etməyə görə inzibati tənbeh aldıqda Agentlik müvafiq olaraq xəbərdarlıq edildiyi və ya inzibati tənbeh aldığı ay üzrə Redaksiyaya maliyyə yardımının ödənilməsini dayandırır.

8.5. Qanunun 65.2-ci maddəsində göstərilən əsaslarla onlayn media subyektinin fəaliyyətinin 2 (iki) ay müddətinə dayandırılması barədə məhkəmə qarşısında iddia qaldırıldıqda Agentlik Redaksiyaya maliyyə yardımının ödənilməsini dayandırır. Məhkəmə iddianı təmin etmədikdə Agentlik iddiaya məhkəmədə baxıldığı müddətdə ödənilməmiş maliyyə yardımının ödənilməsini təmin edir, bu şərtlə ki, subyekt həmin müddətdə 6.3-cü bəndin tələblərinə əməl etsin.

8.6. Qanunun 65.2-ci maddəsində göstərilən əsaslarla məhkəmə tərəfindən onlayn media subyektinin fəaliyyəti 2 (iki) ay müddətində dayandırıldıqda Agentlik həmin aylar üzrə Redaksiyaya maliyyə yardımının ödənilməsini dayandırır.

8.7. Qanunun 65.4-cü maddəsində göstərilən əsaslarla onlayn media subyektinin fəaliyyətinə xitam verilməsi barədə məhkəmə qarşısında iddia qaldırıldıqda Agentlik Redaksiyaya maliyyə yardımının ödənilməsini dayandırır. Məhkəmə iddianı təmin etmədikdə Agentlik iddiaya məhkəmədə baxıldığı müddətdə ödənilməmiş maliyyə yardımının ödənilməsini təmin edir, bu şərtlə ki, subyekt həmin müddətdə 6.3-cü bəndin tələblərinə əməl etsin.

8.8. Qanunun 65.4-ci maddəsində göstərilən əsaslarla məhkəmə tərəfindən onlayn media subyektinin fəaliyyətinə xitam verildikdə Agentlik maliyyə yardımı müqaviləsinə birtərəfli qaydada xitam verir.

8.9. Onlayn media subyekti Media Reyestrindən çıxarıldıqda Agentlik maliyyə yardımı müqaviləsinə birtərəfli qaydada xitam verir.

8.10. Onlayn media subyektinin (veb-saytın) Müsabiqədə saxta sənədlər və ya həqiqətə uyğun olmayan məlumatlar təqdim etməklə qalib gəldiyi məlum olduqda Agentlik maliyyə yardımı müqaviləsinə birtərəfli qaydada xitam verməklə maliyyə yardımını dayandırır və müvafiq müqavilənin qüvvədə olduğu müddət ərzində Agentlik tərəfindən ona ödənilmiş maliyyə yardımı geri qaytarılır.